# Misir Azərbaycanla iqtisadi əlaqələrin inkişafında maraqlıdır

Dünən Milli Məclis Sədrinin birinci müavini Ziyafət Əsgərov Azərbaycana səfərə gəlmiş Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini ilə də görüşüb.

Görüşdə Azərbaycan Xalq Cümhuriyyətinin, Azərbaycan parlamentinin fəaliyyət tarixindən söz açan Ziyafət Əsgərov respublikamızın bir çox dövlətlər, eləcə də Misirlə yaxşı əlaqələr qurduğunu deyib. Görüşdə ilk dəfə 1994-cü ildə ulu öndər Heydər Əliyevin BMT proqramı çərçivəsində, 2007-ci ildə isə Prezident İlham Əliyevin Misirə səfərləri xatırlanıb.

Söhbət zamanı Ziyafət Əsgərov iki ölkə arasında siyasi, iqtisadi, ticari əlaqələrin genişləndirilməsinin vacibliyini bildirib: “Biz Misiri dost, qardaş ölkə hesab edirik. Bizim potensialımız yüksək olsa da, iqtisadi və ticari əlaqələrin həcmi buna uyğun deyil. İstərdik ki, bu əlaqələr daha da inkişaf etdirilsin”.

Görüşdə iki ölkə arasında möhkəm hüquqi bazanın olduğu da diqqətə çatdırılıb.

Azərbaycan və Misirin müştərək dəyərləri paylaşdığını vurğulayan Ziyafət Əsgərov ölkəmizin Cənubi Qafqazın lider dövləti olduğunu və Avropanın enerji təminatında mühüm rol oynadığını söyləyib. Mahmud Əhməd Şərif isə qeyd edib ki, Misir və Azərbaycan xalqları bir-birinə çox böyük hörmət bəsləyir. Qonaq Azərbaycan və Misir arasında iqtisadi əlaqələrin səviyyəsinin arzuolunan olmadığını söyləyərək ölkəsinin respublikamızla bu istiqamətdə əməkdaşlığı möhkəmləndirməkdə maraqlı olduğunu ifadə edib.

Görüşdə bildirilib ki, noyabr ayında Misir və Azərbaycan arasında birbaşa aviareyslərin açılması planlaşdırılır. Bu isə əlaqələrin inkişafına xüsusi töhfə verəcək.

***“Azərbaycan”***

Azərbaycan.- 2018.- 20 sentyabr.- S.2.